## Yalan dünya

Əcəl yetişəndə nə şahlıq, nə taxt,
İnsanı udmağa acdı bu torpaq.
Yaxşını yamandan ayırmaz heç vaxt,
Sanma ki, saflaşıb, durulub dünya,
Yalanlar üstündə qurulub dünya.

Baharı möcüzə, qışı möcüzə,
Torpağı möcüzə, daşı möcüzə,
Dünyanın bilinmir yaşı, möcüzə,
Açılmaz sirlərin çox olub, dünya,
Yalanlar üstündə qurulub dünya.

Hərbi çəkişmələr, yalançı vədlər,
Eyni millətlərdə ayrı sərhədlər,
Atom düyməsinə uzanan əllər,
Əl saxla, baxarsan yox olub dünya,
Yalanlar üstündə qurulub dünya.

İnan, bu dünyanın vərdişi yalan,
Gəlişi yalandı, gedişi yalan,
Vallah, bu dünyanın hər işi yalan,
Sirrin saxlamaqdan yorulub dünya,
Yalanlar üstündə qurulub dünya.

Bəzən qoca getdi, bəzən cavan da,
Bəzən baltalandı körpə fidan da.
Elə sızıldama çiçək solanda,
Çox ömür çiçəyi soldurub dünya,
Yalanlar üstündə qurulub dünya.

Əl aparma bu dünyanın sirrinə,
Bilən yoxdu bu dünyanın sirri nə?
İnsan oğlu, çox da getmə dərinə,
Ölümdən- ölümə yol olub dünya,
Yalanlar üstündə qurulub dünya.